


# Azərbaycan idmanının inkişafında dönüş nöqtəsi

***Ümummilli lider Heydər Əliyevin 1995-ci ilin martın 5-də Bakı İdman Sarayında keçirdiyi tarixi görüşdə verdiyi qərar Azərbaycan idmanının inkişafında dönüş nöqtəsi hesab olunur. Bu hadisə idman sahəsində struktur dəyişikliklərinin başlanğıcı olaraq, ölkəmizdə idmanın inkişafına zəmin hazırladı.***

İdman Fondunun yaradılması ilə idmançılara maddi dəstək, peşəkar təlim verilməsi və müasir infrastrukturun qurulması istiqamətində əhəmiyyətli addımlar atıldı. Bu dəstək sayəsində gənc idmançılar öz potensiallarını tam şəkildə inkişaf etdirmək imkanı əldə etdilər. Fondun təmin etdiyi maliyyə və texniki dəstək beynəlxalq yarışlarda iştirak şansını artırdı, müasir idman obyektlərinin stadionların, məşq mərkəzlərinin və digər infrastruktur layihələrinin inşası sürətləndi. Bu modernləşmə cəmiyyətin geniş təbəqələrinə sağlam həyat tərzinin təşviqində mühüm rol oynadı və yerli, beynəlxalq yarışların yüksək səviyyədə təşkilinə şərait yaratdı.

Ümummilli liderin atdığı bu addım yalnız struktur dəyişiklikləri ilə məhdudlaşmadı, idmançıların peşəkarlığını artırmaqla yanaşı, onların beynəlxalq arenada rəqabət qabiliyyətini də gücləndirdi. Eyni zamanda müasir təlim metodlarının tətbiqi və idmançıların psixoloji hazırlığının gücləndirilməsi də ön plana çıxdı.

Cənab Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamı ilə təsis edilən Bədən Tərbiyəsi və İdman Günü ölkəmizdə müasir idman infrastrukturunun yaradılması, yeni stadionların və idman komplekslərinin tikilməsi, həmçinin beynəlxalq arenada uğurlu çıxışların zəmanəti kimi dəyərləndirilir. Bu gün münasibətilə keçirilən tədbirlər vasitəsilə hər yaş qrupundan olan vətəndaşlar idmanla daha yaxından tanış olur, sağlam həyat tərzinin əhəmiyyəti vurğulanır. Dövlətin yüksək səviyyədə həyata keçirdiyi idman siyasəti yalnız müasir idman obyektlərinin yaradılması ilə məhdudlaşmır, həmçinin gənclərin idmana marağının artırılması, idmançılarımızın beynəlxalq müsabiqələrdə uğurlarının dəstəklənməsi və cəmiyyət arasında sağlam həyat tərzinin təşviqi kimi mühüm sahələrdə də öz əksini tapır.

2006-cı ildə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Gənclər və İdman Nazirliyinin yenidən təşkili və 1997-ci ildən etibarən Milli Olimpiya Komitəsinin davamlı səyləri nəticəsində Azərbaycan beynəlxalq arenada önəmli idman ölkəsi kimi tanındı. Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası və Bakı Su İdmanı Sarayı kimi idman obyektləri ölkəmizi beynəlxalq yarışların keçirilməsi üçün əlverişli məkana çevirdi.

Azərbaycan idmançıları 2008-ci ildə Pekində keçirilən Olimpiya Oyunlarından başlayaraq 2012-ci ildə Londonda və 2016-cı ildə Rio-de-Janeyroda böyük uğurlar əldə etdi. Hər olimpiadada qazanılan medalların sayı və ölkəmizin dünya reytinqində tutduğu yer Azərbaycan idmanının potensialını bir daha təsdiqləyir. Bunun ən nəzərəçarpan nümunələrindən biri 2017-ci ildən etibarən keçirilən Formula 1 Azərbaycan Qran-Prisidir. Bu yüksək səviyyəli yarış Bakının tarixi məhəllələrində keçirilir və dünya miqyasında milyonlarla izləyicini cəlb edir. Yarış şəhərin müasir infrastrukturunu və unikal mədəniyyətini nümayiş etdirmək üçün əhəmiyyətli platforma rolunu oynayır.

2017-ci ildə 54 ölkədən 3.000 idmançının iştirakı ilə keçirilən İslam Həmrəyliyi Oyunları Azərbaycanın təşkilatçılıq potensialını və multikulturalizm siyasətini gücləndirdi. Ölkələrarası mədəniyyət və dostluq əlaqələrinin möhkəmlənməsi, həmçinin milli qürurun artması idman vasitəsilə təmin olundu. Bu tədbir müasir idman obyektləri və logistika sistemlərinin yaradılmasına və təkmilləşdirilməsinə zəmin yaratdı.

2021-ci ildə UEFA Avropa Çempionatının Bakıda keçirilən qrup mərhələsi və 1/4 final oyunları Azərbaycanın futbol infrastrukturunun beynəlxalq səviyyədə rəqabətə davam gətirə biləcəyini sübut etdi. Müasir stadionlar, yüksək təşkilatçılıq və effektiv nəqliyyat sistemi sayəsində turnir ölkəmizin idman potensialını beynəlxalq ictimaiyyətə nümayiş etdirdi. Eyni zamanda turnir yerli iqtisadiyyata canlanma gətirərək, turizm sektorunun inkişafını stimullaşdırdı və ölkəmizin beynəlxalq əlaqələrini daha da gücləndirdi.

İkinci Qarabağ müharibəsində iştirak edən 500 idmançıdan 54-nün şəhid, 67-nin isə yaralı olması onların yalnız peşəkar idmançılar deyil, eyni zamanda vətənə bağlı və nümunəvi vətəndaşlar olduqlarını bir daha sübut etdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər və yaradılan müasir infrastruktur ölkəmizdə daha böyük nailiyyətlərin qazanılmasına şərait yaradır. 2022-ci ilin "Şuşa İli" elan olunması və idman sahəsində əhəmiyyətli addımların atılması, o cümlədən 2024-cü il sentyabrın 19-da Ağdamda 11700 nəfərlik tamaşaçı tutumuna malik "İmarət" stadionunun təməlinin qoyulması, ölkəmizin həm idman, həm də beynəlxalq arenada uğurlarını daha da artıracaq.

Bu cür strateji yanaşma və ardıcıl siyasət Azərbaycan idmanını dünya miqyasında güclü və rəqabətədavamlı mövqeyə yüksəltməkdə əsas rol oynayır. Əldə olunan nailiyyətlər, həm idman infrastrukturun, həm də idmançılarımızın peşəkarlığının artması ilə gələcəkdə daha böyük uğurların əldə olunacağına zəmanət verir.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**